# Azərbaycan-Konqo əlaqələrində yeni səhifə

◆ Konqo Prezidenti Deni Sassu-Nqessonun Azərbaycana rəsmi səfəri



Konqo Prezidenti Deni Sassu-Nqesson Azərbaycana ilk dəfə rəsmi səfər edib.

Aprelin 4-də Konqo Prezidentinin rəsmi qarşılanma mərasimi olub.

Azərbaycan və Konqo prezidentlərinin təkbətək və geniş tərkibdə görüşləri keçirilib.

Azərbaycan-Konqo sənədləri imzalanıb.

Azərbaycan Prezidentinin adından Konqo Prezidentinin şərəfinə rəsmi nahar verilib.

Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər.

Daha sonra Baş nazir Əli Əsədov və Milli Məclisin Sədri Sahibə Qafarova Konqo Prezidenti Deni Sassu-Nqesso ilə görüşüblər.

2-4

## Konqo Prezidenti Deni Sassu-Nqessonun Azərbaycana rəsmi səfəri

# Azərbaycan-Konqo əlaqələrində yeni səhifə

## Rəsmi qarşılanma mərasimi









**Azərbaycan Respublikasına rəsmi səfərə gələn Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqessonun aprelin 4-də rəsmi qarşılanma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Konqo Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Konqo Prezidenti Deni Sassu-Nqessonu qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Konqo Prezidentinə raport verdi.

Prezident Deni Sassu-Nqesso Azərbaycan əsgərlərini salamladı.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Konqo Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyəti Konqo Prezidentinə, Konqo nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Konqo Prezidenti Deni Sassu-Nqessonun qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.